**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№300/7** **18 may 2018-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planında dəyişikliklərin edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planında nəzərdə tutulmuş 6.1.6-cı “Korporativ idarəetmədə hesabatlılıq və şəffaflığın əhəmiyyəti (tərəfdaşla birgə) mövzusunda konfrans” və 6.1.7-ci “Sahibkarların inkişafında və investisiyaların cəlb edilməsində şəffaflığın və hesabatlılığın rolu mövzusunda konfrans” bəndlərinin icrasını təmin etmək məqsədilə Auditin təşkili və kadr hazırlığı idarəsi tərəfindən daxil olmuş təklifi müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2018-ci il üzrə iş planında nəzərdə tutulmuş 6.1.6-cı “Korporativ idarəetmədə hesabatlılıq və şəffaflığın əhəmiyyəti (tərəfdaşla birgə) mövzusunda konfrans” və 6.1.7-ci “Sahibkarların inkişafında və investisiyaların cəlb edilməsində şəffaflığın və hesabatlılığın rolu mövzusunda konfrans” bəndlərinin icrasını təmin etmək məqsədilə hər iki konfransın mövzusu birləşdirilərək 2018-ci il 27 iyun tarixində “Korporativ idarəetmədə hesabatlılıq və şəffaflıq problemləri” mövzusunda tərəfdaşlarla birgə elmi-praktiki konfransın keçirilməsi məqsədəmüvafiq hesab edilsin.
2. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**